

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 1 (21.912)

*2 yanvar 2018-ci il, çərşənbə axşamı*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik

## Naxçıvan Qarnizonunun Hərbi Hospitalına bayram sovqatı aparılmışdır





Birlik və həmrəylik ordunun gücünü təşkil edir. Azərbaycan Respublikası Silahlı Qüvvələrinin muxtar respublika ərazisində yerləşən ordu, birləşmə və hissələrində xidmətin təşkilində "bir nəfər hamı, hamı bir nəfər üçün" prinsipi əsas götürülür. Bu isə şəxsi heyətin mənəvi-psixoloji hazırlığını daha da artırır. Bayram günlərində hərbi hissələrə sovqatların aparılması, əsgərlərlə həmrəylik nümayiş etdirilməsi isə xalq-ordu birliyinin daha bir ifadəsidir.

Dekabrın 31-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Naxçıvan Qarnizonunun Hərbi Hospitalına gəlmiş, burada müalicə olunan əsgərlərlə görüşmüşdür.

Məlumat verilmişdir ki, hərbi hissələrdə şəxsi heyətin sağlamlığının qorunmasına xüsusi diqqət yetirilir. Xüsusilə çətin dağlıq şəraitdə yerləşən birləşmə və bölmələrdə yaradılan şərait, iqlim şəraitinə uyğun rejim qaydalarının və qidalanmanın tətbiqi əsgərlər arasında xəstəliklərin azalmasına səbəb olmuşdur. Hərbi hospitalda hərbi qulluqçuların müayinə və müalicəsi üçün lazımi şərait yaradılmışdır. Dərman vasitələri ilə təminat və müasir avadanlıqların qurulması, eləcə də ixtisaslı həkimlərin olması tibbi xidmətin hərtərəfli təşkilinə imkan verir.

Ali Məclisin Sədri hospitalın ayrı-ayrı bölmələrində müalicə olunan əsgərlərin səhhəti və qidalanması ilə maraqlanmış, onların və kollektivin bayramını təbrik etmişdir.

Həkim Fariz İbrahimov hərbi hospitalda müalicə olunan xəstələr və kollektiv adından minnətdarlıq etmişdir.

Hospitalda müalicə alan əsgərlərə və tibb heyətinə bayram hədiyyələri paylanmış, gətirilmiş ərzaq məhsulları mətbəxə təhvil verilmişdir.

## Psixi və Ağciyər Xəstəlikləri dispanserlərində, Onkoloji və Yoluxucu Xəstəliklər mərkəzlərində müalicə alan xəstələrə bayram sovqatı verilmişdir





Ümummilli liderimiz Heydər Əliyev tərəfindən əsası qoyulan həmrəylik və birlik ideyaları real iş və əmələ əsaslanır. Çünki həmrəylik həm də xeyirxah əməllərə çağırış deməkdir. Həmrəylik bayramının mahiyyətinə uyğun olaraq xüsusi qayğıya və şəfqətə ehtiyacı olan insanlara diqqət göstərilməsi bu baxımdan mühüm əhəmiyyətə malikdir.

Dekabrın 31-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Psixi Xəstəliklər Dispanserinə gəlmiş, səhiyyə ocağındakı xəstələri və tibb işçilərini Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il bayramı münasibətilə təbrik edərək demişdir: Naxçıvan şəhərinin bu ərazisində müasir səhiyyə şəhərciyi yaradılmışdır. Bu gün Psixi və Ağciyər Xəstəlikləri dispanserlərində, Onkoloji və Yoluxucu Xəstəliklər mərkəzlərində xəstələrin müalicəsinə xüsusi diqqət yetirilir. İnsana qayğı müalicənin yarısı deməkdir. Ona görə də bu səhiyyə müəssisələrində tibbi xidmətin təşkili ilə yanaşı, həm də xəstələrə qayğı göstərilməlidir.



Ali Məclisin Sədri demişdir: Bu gün Hərbi Hospitalda müalicə olunan əsgərlərlə də görüş keçirildi. Vaxtilə orada xəstələrin sayı çox idi. Lakin bu gün hospitalda ümumi qarnizon üzrə 38 xəstə vardır. İstər Psixi və Ağciyər Xəstəlikləri dispanserlərində, Onkoloji və Yoluxucu Xəstəliklər mərkəzlərində, istərsə də hərbi hospitalda xəstələrin sayının ilbəil azalması yaradılan şəraitin, eyni zamanda dövlətlə səhiyyə işçilərinin birgə fəaliyyətinin nəticəsidir. Kollektivlər bundan sonra da yaradılan şəraitdən səmərəli istifadə etməli, xəstələrə hərtərəfli tibbi xidmət göstərilməlidir.

Psixi Xəstəliklər Dispanserində müalicə olunan Zivər Qafarlı və həkim Kəmalə Səfərova bayram günündə onlarla keçirilən görüşə görə minnətdarlıq etmiş, xəstələr və səhiyyə müəssisələrinin kollektivləri adından Ali Məclisin Sədrinə bayram təbriklərini çatdırmışlar.

Sonra Ali Məclisin Sədri burada müalicə alan xəstələrə bayram hədiyyələri təqdim etmiş, onların səhhəti, müalicələrinin təşkili və qidalanması ilə maraqlanmışdır.

Bildirilmişdir ki, muxtar respublikada yaradılan müasir səhiyyə infrastrukturu tibbi xidmətin səmərəli təşkilinə imkan verir. Psixi və Ağciyər Xəstəlikləri dispanserlərində, Onkoloji və Yoluxucu Xəstəliklər mərkəzlərində ən son tibbi avadanlıqlar qurulmuşdur. Xəstəliklərin tez aşkar olunması və müalicəyə cəlbi məqsədilə mütəmadi olaraq profilaktik tədbirlər həyata keçirilir, səhiyyə maarifi işinə diqqət artırılır.

Ali Məclisin Sədri tibbi xidmətin təşkili ilə bağlı müvafiq tapşırıqlar vermişdir.

Gətirilmiş hədiyyələr Psixi və Ağciyər Xəstəlikləri dispanserlərində, Onkoloji və Yoluxucu Xəstəliklər mərkəzlərində müalicə alan xəstələrə və burada çalışan tibb işçilərinə paylanmış, müxtəlif ərzaq məhsulları anbarlara təhvil verilmişdir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Naxçıvan şəhərində Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il bayramı qeyd olunmuşdur





Ümummilli liderimiz Heydər Əliyev tərəfindən Naxçıvanda əsası qoyulan Dünya Azərbaycanlılarının Həmrəylik ideyası bu gün milyonlarla soydaşımızı birləşdirən dövlətçilik, vətənçilik amalına çevrilib. Azərbaycanın davamlı inkişafını təmin edən əsas amillərdən biri də milli birlik və həmrəyliyimizdir. Ölkəmizdəki sabitlik, davamlı inkişaf və yüksək rifah isə xalqımızın birlik və həmrəyliyini daha da möhkəmləndirir, quruculuq, abadlıq işlərinin həcmi ilbəil artır. Naxçıvan Muxtar Respublikasında əldə olunan nailiyyətlər 2018-ci ildə də inkişafın davamlı olacağına, quruculuq işlərinin geniş vüsət alacağına əminlik yaradır.

Dekabrın 31-də axşam saatlarından başlayaraq Naxçıvan şəhərinin Heydər Əliyev prospektindəki mərkəzi meydanda bayram şənliyi təşkil olunmuş, Vətənimizi, həmrəyliyi, yeni ili tərənnüm edən mahnılar səslənmiş, sakinlərə iaşə xidməti göstərilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov ailə üzvləri ilə birlikdə bayram şənliyində iştirak etmişdir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il münasibətilə Azərbaycan xalqına televiziya vasitəsilə təbriki mərkəzi meydanda quraşdırılan monitor vasitəsilə yayımlanmışdır. Dövlət başçısı demişdir: ***“Qarşımızda duran bütün vəzifələri icra etmək üçün güclü iqtisadiyyat lazımdır. Biz bu istiqamətdə də bu il çox fəal işləmişik. 2017-ci il tarixdə dərin, köklü və nəticə verən iqtisadi islahatlar ili kimi qalacaqdır. Ölkələrin iqtisadiyyatlarının rəqabətqabiliyyətliliyinə görə Azərbaycan dünya miqyasında 35-ci yerdədir. Bu, ilk növbədə, onu göstərir ki, ölkəmizdə aparılan çox ciddi islahatlar gözəl nəticələr verir. Bu il iqtisadiyyatın qeyri-neft sektoru 2 faizdən çox, iqtisadiyyatımızın qeyri-neft sənayesi 3 faizdən çox, kənd təsərrüfatı isə 4 faizdən çox artmışdır... Bir sözlə, 2017-ci il ölkəmiz üçün uğurlu olub, əminəm ki, gələn il də uğurlu olacaqdır”.***

Sakinlər Ali Məclisin Sədrinə bayram təbriklərini çatdırmışlar.

Yeni ilin ilk dəqiqələrində Naxçıvan şəhərinin mərkəzi meydanında möhtəşəm bayram atəşfəşanlığı olmuşdur.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin mətbuat xidməti**

## Naxçıvan Muxtar Respublikasında Yeni il şənlikləri keçirilmişdir







Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev demişdir: **“Gələcəyimiz çox parlaq olacaqdır. Qarşımızda bütün yollar açıqdır. Biz irəliyə, müasirliyə, inkişafa, tərəqqiyə doğru gedirik”.**

Sabitlik və sürətli sosial-iqtisadi inkişaf, aparılan genişmiqyaslı quruculuq işləri müstəqil Azərbaycanda və onun Naxçıvan Muxtar Respublikasında 2018-ci ili də quruculuq və tərəqqi mərhələsinə çevirəcəkdir.

Yanvarın 1-də Naxçıvan Muxtar Respublikasının şəhər və rayon mərkəzlərində yeni ilin gəlişi münasibətilə bayram şənliyi keçirilmişdir.

Naxçıvan şəhərinin Heydər Əliyev prospektində təşkil olunan bayram şənliyində Naxçıvan Dövlət Kukla Teatrı aktyorlarının ifasında səhnəciklər təqdim edilmiş, şən mahnılar səslənmişdir.

Bayram şənliyində muxtar respublikada fəaliyyət göstərən istehsal və xidmət müəssisələri tərəfindən əhaliyə ictimai-iaşə xidməti göstərilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov bayram şənliyində iştirak edərək ictimai-iaşə xidmətinin təşkili ilə maraqlanmış, sakinlərin bayramını təbrik etmiş, uşaqlara hədiyyələr vermişdir.

Məktəblilər Nazlı İbrahimli və Yusif Dadaşov Ali Məclisin Sədri ilə görüşmüş, təbriklərini, xoş arzu və diləklərini çatdırmışlar.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin mətbuat xidməti**

## Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) məruzəsi haqqında Naxçıvan Muxtar Respublikası Ali Məclisinin

## QƏRARI

“Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) haqqında” Naxçıvan Muxtar Respublikası Qanununun 14.1-ci maddəsinə uyğun olaraq Naxçıvan Muxtar Respublikasının Ali Məclisi **qərara alır:**

1. Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) məruzəsi nəzərə alınsın.

2. İnsan hüquq və azadlıqlarının təmin edilməsi ilə bağlı məsələlər gündəlik nəzarətdə saxlansın.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin Sədri** **Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 30 dekabr 2017-ci il*

## Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) 2017-ci ildə fəaliyyəti haqqında illik

## MƏRUZƏ

Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) muxtar respublikada vətəndaşların hüquq və azadlıqlarının müdafiəsinə yönəlmiş tədbirləri 2017-ci ildə də davam etdirmişdir.

2017-ci ildə Müvəkkilin ünvanına yazılı, şifahi və elektron formada 85 müraciət daxil olmuşdur. Daxil olan müraciətlərin 25-ni şikayətlər, 60-nı isə ərizələr təşkil etmişdir.

Qanunun tələblərinə müvafiq olaraq şikayətlərin Müvəkkilin səlahiyyətlərinə aid olmaması, ərizəçinin hüquqlarının pozulduğu gündən 1 il müddətin ötməsi, şikayətlə bağlı məhkəmə icraatının aparılması, təkrar təqdim edilmiş şikayətdə yeni məlumat, fakt və sübutların olmaması səbəbindən 4 şikayətə baxılmasından imtina edilmişdir. 21 müraciət baxılmaq üçün icraata qəbul edilmiş, onlardan 5-i təmin edilmişdir. 16 şikayətə baxılması zamanı isə hüquq pozuntusu aşkar edilməmişdir. Daxil olan müraciətlərin araşdırılması ilə əlaqədar muxtar respublikanın dövlət və yerli özünüidarəetmə orqanlarına müvafiq sorğular ünvanlanmış, ərizəçilərə hüquqları izah edilmişdir.

Müraciətlərə qanunla müəyyən edilmiş müddətlərdə baxılmış və daxil olan müraciətlər cavablandırılmışdır.

2017-ci ildə də Müvəkkil hüquqi maarifləndirmə sahəsində fəaliyyətini, əsasən, insan hüquqlarının müxtəlif istiqamətləri üzrə və müxtəlif sosial qruplara ünvanlanan tədbirlərin həyata keçirilməsi, maarifləndirici vəsaitlərin hazırlanması istiqamətində davam etdirmişdir.

Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 27 dekabr tarixli Sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramı”nda nəzərdə tutulmuş tədbirlərin muxtar respublikada təbliği və öyrənilməsi məqsədilə müvafiq tədbirlər keçirilmişdir.

Hər il olduğu kimi insan hüquqları sahəsində əlamətdar günlər 18 iyun – Azərbaycan Respublikasında İnsan Hüquqları Günü, 21 sentyabr – Beynəlxalq Sülh Günü, 10 dekabr – Beynəlxalq İnsan Hüquqları Günü qeyd edilmiş, tədbirlər keçirilmişdir.

Ümumilikdə, 2017-ci il ərzində Müvəkkil təsisatı tərəfindən müxtəlif sosial qruplara ünvanlanmış 71 tədbir keçirilmiş, hüquqi maarifləndirici vəsaitlər təqdim edilmişdir.

2017-ci ildə hərbi qulluqçuların hüquqlarının müdafiəsi və bu sahədə hüquqi maarifləndirmə daim diqqət mərkəzində olmuş, fəaliyyətimizin əlaqələndirilməsi məqsədilə Naxçıvan Muxtar Respublikası Əlahiddə Ümumqoşun Ordusu və “Naxçıvan” Əlahiddə Sərhəd Diviziyası ilə birgə hazırlanmış tədbirlər planına əsasən muxtar respublika ərazisindəki birləşmə və hərbi hissələrdə tədbirlər keçirilmişdir.

Ötən ildə məhkumların hüquqlarının müdafiəsi və bu sahədə hüquqi maarifləndirmənin həyata keçirilməsi davam etdirilmiş, Ədliyyə Nazirliyi ilə hazırlanmış birgə tədbirlər planına əsasən cəzaçəkmə müəssisələrində insan hüquqlarının müxtəlif istiqamətləri üzrə maarifləndirici tədbirlər keçirilmiş, hüquqi vəsaitlər təqdim edilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin təşəbbüsü ilə 2017-ci ildə Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin Penitensiar Xidmətinin tabeliyində olan cəzaçəkmə müəssisələrində 1 məhkum cəzadan şərti olaraq vaxtından əvvəl azad edilmiş, 5 məhkumun cəzasının çəkilməmiş hissəsi daha yüngül cəza növü ilə əvəz edilmişdir.

Ümumilikdə, 2017-ci il ərzində cəzaçəkmə müəssisələrində cəza çəkən 6 məhkum barəsində humanist tədbirlər tətbiq edilmişdir.

Məhkumların islah olunması və gələcəkdə cəmiyyətə adaptasiyasında mühüm rol oynayan əmək hüququnun daha səmərəli təmin edilməsi istiqamətində tədbirlər davam etdirilmiş, Qarışıq Rejimli Cəzaçəkmə Müəssisəsinin yeni yaradıcılıq və istehsal sahəsində məhkumların peşə vərdişlərinə yiyələnməsi, müxtəlif peşələr üzrə kurslara cəlb edilməsi təşkil olunmuş, onların bu sahədə fəaliyyətlərinə şərait yaradılmışdır.

2017-ci ildə Müvəkkil preventiv mexanizm yurisdiksiyasının şamil olunduğu orqanlar üzrə, ümumilikdə, 31 müəssisədə mütəmadi olaraq və əvvəlcədən xəbərdarlıq edilmədən 107 başçəkmə həyata keçirmiş, preventiv mexanizmin fəaliyyəti ilə bağlı maarifləndirmə tədbirlərində 1870 nəfər iştirak etmişdir.

Preventiv mexanizm yurisdiksiyasının şamil olunduğu müəssisələrdə saxlanılan şəxslərin sosial, tibbi, habelə qanunla müəyyən edilmiş digər hüquqlarının təmin edilməsi, həmçinin onların asudə vaxtının təşkil edilməsi üçün müasir standartlara uyğun müvafiq şərait yaradılmışdır.

Ötən il ərzində Müvəkkil aparatında beynəlxalq təcrübə mübadiləsi sahəsindəki əlaqələrin inkişaf etdirilməsi diqqət mərkəzində saxlanılmış, beynəlxalq qurumların Azərbaycan üzrə ofisləri, xarici ölkələrin ölkəmizdəki səfirliklərinin nümayəndələri ilə görüşlər keçirilmişdir.

Ötən ildə də informasiya və ictimaiyyətlə əlaqələrin təşkili istiqamətində işlər davam etdirilmişdir.

Müvəkkilin rəsmi internet səhifəsində elektron kitabxana bazasının daha da zənginləşdirilməsi, informasiyaların mütəmadi olaraq yenilənməsi, muxtar respublikada insan hüquqları ilə bağlı həyata keçirilən tədbirlərin, o cümlədən Müvəkkil və təsisatın fəaliyyətinin işıqlandırılması, elektron müraciət səhifəsinin fəaliyyəti daim diqqət mərkəzində saxlanılmışdır.

Muxtar respublikanın iqtisadi inkişafı, sosial-iqtisadi layihələrin ardıcıl həyata keçirilməsi əhalinin rifah halının getdikcə yaxşılaşmasına, nəticə etibarilə, insan hüquq və azadlıqlarının daha səmərəli təmin edilməsi və etibarlı müdafiəsinə də geniş imkanlar yaratmışdır.

Müvəkkil təsisatı digər dövlət orqanlarının səlahiyyətlərini məhdudlaşdırmadan və əvəz etmədən muxtar respublikamızda yaradılan şəraitdən istifadə edərək bundan sonra da üzərinə düşən vəzifələrin yerinə yetirilməsi istiqamətində səylərini artıracaqdır.

## Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il bayramı muxtar respublikanın rayonlarında yüksək əhval-ruhiyyə ilə qeyd olunub

### *Şərur rayonu*



***Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin qətiyyətlə və ardıcıllıqla apardığı böyük quruculuq siyasəti Şərur rayonunun da simasını günü-gündən dəyişir, hər il onlarla yeni obyektlər tikilir, yaxud əsaslı şəkildə yenidən qurulur, yollar çəkilir, körpülər salınır, yaşayış məntəqələri abadlaşdırılır, meliorativ tədbirlər həyata keçirilir.***

Təkcə bir faktı qeyd edək ki, 2017-ci ilin on bir ayında rayonda iqtisadiyyatın və sosial sahələrin inkişafı üçün bütün maliyyə mənbələrindən əsas kapitala 73 milyon 658,9 min manat investisiya yönəldilib. Bunun da əsas hissəsi – 69 milyon 727,4 min manatı tikinti-quraşdırma işlərində istifadə olunub. Arpaçay, Çəmənli, Qarahəsənli, Ələkli və Arbatan kəndlərində yeni sosial obyektlər, Şərur şəhərində üçmərtəbəli tam orta məktəb binası istifadəyə verilib, adıçəkilən yaşayış məntəqələrində bütün infrastrukturlar təzələnib, rayon mərkəzində bir beşmərtəbəli ictimai yaşayış binası əsaslı şəkildə yenidən qurulub, içməli su və kanalizasiya xətlərinin çəkilişi başa çatıb. Ərəbyengicə kəndində aparılan quruculuq tədbirləri isə yekunlaşmaq üzrədir.

Aqrar sahənin inkişafı da diqqət mərkəzində saxlanılıb, on bir ayda kənd və balıqçılıq təsərrüfatlarında istehsal olunmuş məhsulun həcmi 124 milyon 170,2 min manat təşkil edib. Bu da ötən ilin eyni dövrü ilə müqayisədə 4,8 faiz çoxdur.

Sakinlər yaşıllaşdırma tədbirlərində fəal iştirak edib, yaz və payız iməcilikləri zamanı müxtəlif ərazilərdə on minlərlə meyvə tingi, meşə ağacı və gül kolu əkilib, əvvəlki illərdə salınmış bağlarda və yaşıllıq zolaqlarında becərmə və bərpa işləri aparılıb.

Sənaye məhsulu istehsalı əvvəlki illə müqayisədə 1,1 faiz artaraq 84 milyon 395,3 min manat təşkil edib.

Ümumiyyətlə, 2017-ci ildə bütün sosial-iqtisadi sahələr üzrə nəzərəçarpacaq səviyyədə artım qeydə alınıb.

Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il münasibətilə keçirilən ümumrayon bayram tədbirində aparıcılar qazanılan nailiyyətləri sadalayıb, bu yüksəlişin, tərəqqinin əsasını ümummilli liderimiz Heydər Əliyevin qoyduğunu vurğulayıb, həmin böyük siyasətin ardıcıl və qətiyyətli davamçıları olan Prezidentimiz cənab İlham Əliyevin və muxtar respublika Ali Məclisi Sədrinin xidmətlərini dərin minnətdarlıq hissi ilə qeyd ediblər.

Rayon mədəniyyət sarayının qarşısında bəzədilmiş yolka ətrafına toplaşan minlərlə şərurlu maraqlı musiqi nömrələri dinləyib, rəqslərə tamaşa ediblər. “Arpaçay” instrumental ansamblının müşayiəti ilə müğənnilərin ifa etdikləri şən nəğmələr tədbir iştirakçıları tərəfindən alqışlarla qarşılanıb.

Həmişə olduğu kimi, “Şərur” və “Şərur qönçələri” yallı kollektivlərinin çıxışları şənliyi daha da rövnəqləndirib.

Şaxta baba və Qar qız şənliyə toplaşanları təbrik edib, uşaqlara hədiyyələr paylayıb, onlarla birlikdə rəqs ediblər.

### *Babək rayonu*



Babək rayonunda keçirilən bayram tədbirində Vətənimizi, yeni ilin gəlişini tərənnüm edən mahnıların səslənməsi, yolka ətrafında Şaxta babanın, Qar qızın, rayon mədəniyyət evinin musiqi kollektivlərinin çıxışları şənliyə gələnlərdə xoş ovqat yaradıb, paylanan hədiyyələr balacalara əsl bayram sevinci bəxş edib.

Yola saldığımız 2017-ci il Babək rayonu üçün də əlamətdar olub. Belə ki, ötən il rayonda tikinti-quruculuq işləri davam etdirilib. Mart ayında rayon İcra Hakimiyyətinin inzibati binası əsaslı şəkildə yenidən qurularaq kollektivin istifadəsinə verilib. Bundan başqa, rayonun iri yaşayış məntəqələrindən olan Nehrəmdə Heydər Parkının açılışı olub, yeni üzümçülük təsərrüfatı yaradılıb. Görülən bu işlər əhalinin məşğulluğunu təmin etməklə yanaşı, həm də kəndin görkəminə yeni çalarlar qatıb. Ümumilikdə isə, hər il bu kənddə hansısa obyekt istifadəyə verilir, sakinlər yeni quruculuq ünvanlarının sevincini yaşayırlar. Ötən il tarixin yadigarı olan Nehrəm “İmamzadə”sində təmir-bərpa işləri aparılıb.

Ali Məclis Sədrinin iştirakı ilə 2017-ci ildə rayonun Şıxmahmud və Xəlilli kəndlərini Naxçıvan şəhərinə birləşdirən yol, həmçinin su-kanalizasiya sistemlərinin açılışı olub.

Bilik günündə isə ucqar dağ kəndi olan Payızda bir gündə 4 sosial obyekt və kənd yolu sakinlərin ixtiyarına verilib. Müstəqillik illərinin bəhrəsi kimi gözoxşayan bu tədbirlər düşmənin beş addımlığında yerləşən Gərməçataq kəndini də əhatə edib. Belə ki, dekabr ayında bu sərhəd yaşayış məntəqəsində məktəb, kənd və xidmət mərkəzlərinin istifadəyə verilməsi, Babək qəsəbəsində isə yeni yaşayış binasının inşasına başlanılması ötən ilin əsas uğurlarından sayılır.

Şənlikdə rayon sakinləri söhbətlərində ildən-ilə qüdrətlənən Azərbaycan kimi bir ölkənin vətəndaşı olmalarından qürur hissi duyduqlarını dilə gətirdilər. El ağsaqqalları, ziyalılar, bir sözlə, rayon sakinləri bayramların belə yüksək səviyyədə qeyd olunmasına görə dövlətimizə öz minnətdarlıqlarını bildirdilər: “Qoy bu əmin-amanlıq, rahat həyat Azərbaycanımız, eləcə də onun ayrılmaz tərkib hissəsi olan Naxçıvanımız üçün əbədi olsun!”

### *Ordubad rayonu*

***31 dekabr – Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il bayramı Ordubad rayonunda təntənə ilə qeyd edilib, sakinlər böyük ruh yüksəkliyi ilə Ordubad şəhərində keçirilən bayram tədbirinə qatılıblar. Rayonun mədəniyyət müəssisələrinin və musiqi məktəbləri kollektivlərinin təqdim etdikləri musiqi nömrələri alqışlarla qarşılanıb. Tədbirdə milli birliyimizə, həmrəyliyimizə, dövlətçiliyimizə, müstəqilliyimizə, doğma yurdumuza həsr olunan şeirlər səsləndirilib, mahnı və rəqslər tədbir iştirakçılarına xoş ovqat bəxş edib, Şaxta baba və Qar qız uşaqlara bayram sovqatı veriblər.***



Tədbirin aparıcıları bildiriblər ki, muxtar respublikanın sosial-iqtisadi inkişafı istiqamətində həyata keçirilən tədbirlər bütün bölgələr kimi, Ordubadın da sosial-iqtisadi inkişafına öz töhfələrini verib, rayon iqtisadiyyatının daha da güclənməsi əhalinin gün-güzəranını xeyli yaxşılaşdırıb. Bölgənin ən ucqar dağ və sərhəd kəndlərinin belə, siması dəyişib, yaşayış məntəqələrində tikinti-quruculuq işləri geniş vüsət alıb. Belə ki, 2017-ci ildə də Ordubad rayonunda geniş tikinti-quruculuq işləri aparılıb, yeni bağlar, yaşıllıq sahələri salınıb. Bu rayonun daha da abadlaşmasına, gözəlləşməsinə səbəb olub.

Ötən il Şəhriyar qəsəbəsində yerləşən Ordubad dəmiryol sərnişin

Ardı 4-cü səhifədə

vağzalı və Ordubad Yol Sahəsinin inzibati binalarında tikinti işləri davam etdirilib.

2017-ci ildə yaşayış məntəqələrində aparılan tikinti-quruculuq işlərindən Ordubad şəhərinə, Üstüpü, Çənnəb, Düylün və Məzrə kəndlərinə xeyli pay düşüb. Ötən il noyabrın 21-də Üstüpü kəndində 340 şagird yerlik məktəb binası, 3 mərtəbəli kənd mərkəzi, xidmət mərkəzi, Düylün kəndində xidmət mərkəzi və 20 kilometr uzunluğundakı Düylün-Çənnəb-Üstüpü-Məzrə kənd avtomobil yolu istifadəyə verilib.

Yola saldığımız ildə, həmçinin Ordubad şəhərinin “İstanbul” küçəsində 24 mənzilli, 5 mərtəbəli yaşayış binasında və onun ətrafında təmir-abadlıq işlərinin aparılmasına başlanılıb. Binanın çardağı və fasadı yenilənib, pəncərələri dəyişdirilib. Ötən il, eyni zamanda Ordubad şəhərinin və Şəhriyar qəsəbəsinin ərazilərində kanalizasiya və su xətlərinin çəkilişi davam etdirilib. Daha bir quruculuq tədbiri isə Ordubad şəhərinin Heydər Əliyev prospektində həyata keçirilir. Burada Rabitə Evi üçün 4 mərtəbəli bina inşa olunur. Bütün bu yeniliklər fonunda rayon sakinləri builki bayramlarını – 31 dekabr – Dünya Azərbaycanlılarının Həmrəylik Gününü və Yeni ilin gəlişini böyük ruh yüksəkliyi ilə qeyd edirlər. Belə ki, 2017-ci il dekabrın 31-də bayram libasına bürünmüş Ordubad şəhərində xalq gəzintisi təşkil olunub. Şəhər sakinləri tədbirlər meydanında bəzədilən yolka ağacının ətrafına toplaşaraq Yeni ili yüksək ovqatla qarşılayıblar. 2018-ci il yanvarın 1-də isə rayon mərkəzində bayram münasibətilə ədəbi-bədii proqram nümayiş etdirilib. Rayondakı mədəniyyət evlərinin, klubların, musiqi məktəblərinin bədii özfəaliyyət kollektivləri, rəqs qrupları və Ordubad Xalq Teatrının üzvləri rəngarəng konsert proqramları və səhnəciklərlə meydana toplaşan yüzlərlə rayon sakininə xoş ovqat bəxş ediblər.

## Culfa rayonu



***2018-ci ili Culfa rayonu da böyük nailiyyətlərlə qarşılayıb. Rayon iqtisadiyyatının bütün sahələrinin dinamik inkişafı ötən 2017-ci ildə də tikinti-quraşdırma, abadlıq və yenidənqurma işlərinin artmasına, yeni infrastruktur obyektlərinin yaradılmasına imkan verib. Belə ki, ötən il yanvarın 11-də Culfa rayon mərkəzi və ətraf kəndlərin içməli su təchizatı, kanalizasiya sistemlərinin istifadəyə verilməsi mərasimi keçirilib. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev mərasimdə iştirak edib.***

“Culfa rayon mərkəzi və ətraf kəndlərin içməli su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması” layihəsi çərçivəsində Əlincəçay yatağında kaptaj və onu sel sularından qorumaq üçün selyönəldici bənd tikilib. Sutəmizləyici qurğu 2045-ci ilə qədər əhalini və sənaye sahəsini gün ərzində ekoloji cəhətdən təmiz su ilə təchiz edəcək. Su anbarlarından təmizlənmiş su öz axını ilə Culfa şəhərinin və Gülüstan kəndinin əhalisinə fasiləsiz olaraq verilir. Bununla da Culfa şəhəri və Gülüstan kəndində yaşayan əhali təmiz, dayanıqlı, ekoloji cəhətdən tam yararlı və Dünya Səhiyyə Təşkilatının standartlarına cavab verən içməli su ilə davamlı olaraq təmin edilib.

Ötən il sentyabrın 6-da isə Culfa şəhərində Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Geoloji Axtarış və Kəşfiyyat İdarəsi üçün yeni kompleks istifadəyə verilib.

Tikinti-quruculuq tədbirləri hazırda rayonun Dizə kəndində davam etdirilir. Belə ki, Naxçıvan Muxtar Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsi Culfa Rayon İdarəsinin inşaatçıları tərəfindən Dizə kəndində tam orta məktəb, kənd və xidmət mərkəzləri üçün yeni binalar inşa olunur.

Culfa rayonunda yol tikintisi əvvəlki illərdə olduğu kimi, 2017-ci ildə də diqqət mərkəzində saxlanılıb, yeni yolların çəkilişi və mövcud yolların təmiri məqsədilə ardıcıl olaraq zəruri tədbirlər həyata keçirilib. Hazırda Naxçıvan-Ordubad magistralının Yaycı kəndi ərazisindən başlayaraq Şurud kəndinə qədər olan yol yatağı yenidən qurulur.

Əhalisinin 70 faizdən çoxu kəndlərdə yaşayan muxtar respublikamızın digər bölgələrində olduğu kimi, Culfa rayonunda da aqrar bölmənin inkişafı mühüm əhəmiyyətli sahə kimi diqqət mərkəzində saxlanılıb, daxili bazarın keyfiyyətli yerli kənd təsərrüfatı məhsulları ilə təmin olunmasına əlverişli şərait yaradılıb. Həyata keçirilən ardıcıl və məqsədyönlü tədbirlər öz bəhrəsini verib, əhalinin məşğulluğu təmin olunub, maddi rifah halı daha da yaxşılaşıb.

Culfa şəhərində keçirilən bayram şənliyində qazanılan uğurlar, əldə edilən nailiyyətlərdən ətraflı bəhs edilib. Şaxta babanın, Qar qızın, nağıl qəhrəmanlarının, rayon mədəniyyət evinin özfəaliyyət və Culfa şəhərindəki uşaq musiqi məktəbi kollektivlərinin iştirakı ilə tamaşa və konsert proqramı təqdim olunub. Nağıl qəhrəmanları ilə görüşən və Şaxta babadan yeni il hədiyyələri alan uşaqlar əsl bayram sevinci yaşayıblar.

Bayram şənliyinin aparıcıları culfalıları əlamətdar bayramlar münasibətilə təbrik edərək 2017-ci ilin Culfa rayonu üçün uğurlu olduğunu vurğulayıb, sakinlərə yeni ildə ictimai-siyasi, iqtisadi, sosial və mədəni həyatda uğurlar arzulayıblar.

## Kəngərli rayonu



***13 il bundan əvvəl yaradılmış Kəngərli rayonu ötən dövrdə böyük inkişaf yolu keçib. Həyata keçirilən tikinti-quruculuq tədbirləri çərçivəsində rayonun bütün yaşayış məntəqələri abadlaşdırılıb, rayon mərkəzi ilə kəndləri birləşdirən avtomobil yolları yenidən qurulub. Ancaq abadlıq və quruculuq tədbirləri bununla bitməyib.***

Yola saldığımız 2017-ci ildə də bu sahədə mühüm işlər görülüb. Belə ki, ötən il aprelin 14-də rayon mərkəzində zirzəmi ilə birlikdə 4 mərtəbədən ibarət olan 224 yerlik yeni uşaq bağçası istifadəyə verilib. Eyni zamanda ötən il Qıvraq qəsəbəsində zirzəmi ilə birlikdə 7 mərtəbədən ibarət 48 mənzilli yaşayış binasının inşasına da başlanılıb ki, bu da rayon sakinlərinin mənzil-məişət şəraitinin yaxşılaşdırılması sahəsində görülən işlərin nəticəsi kimi qiymətləndirilir.

Muxtar respublikamızda tarix və mədəniyyətimizə göstərilən böyük dövlət qayğısını 2017-ci ildə Kəngərli rayonunda aparılan tədbirlərin mahiyyətində də görmək mümkündür. Yola saldığımız ildə rayonun Qarabağlar kəndindəki Qarabağlar Türbə Kompleksinin əsaslı şəkildə bərpası davam etdirilib. Şahtaxtı kəndində isə Şahtaxtinskilər Muzeyinin binası yenidən qurulub. Bundan əlavə, rayonda kənd təsərrüfatının inkişafı da diqqət mərkəzində saxlanılıb, şoranlaşma və eroziyaya qarşı mübarizə tədbirləri gücləndirilib. Bu məqsədlə Böyükdüz kəndi ərazisində 407 hektar torpaq sahəsinin əkin dövriyyəsinə daxil olmasına imkan yaradan qapalı suvarma şəbəkəsi tikilərək istifadəyə verilib. Əldə olunan nailiyyətlər digər sahələri də əhatə edir.

Yanvarın 1-də rayon mərkəzindəki Heydər Əliyev Mədəniyyət və İstirahət Parkında Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il bayramı münasibətilə keçirilən şənlikdə 2017-ci ildə rayonda bütün sahələrdə qazanılan uğurlar barədə geniş danışılıb. Bayram tədbirində rayonun musiqi kollektivlərinin səsləndirdikləri mahnılar çoxsaylı tamaşaçılar tərəfindən alqışlarla qarşılanıb. Yeni ilin personajları olan Şaxta baba və Qar qızın gəlişi uşaqlara şən əhval-ruhiyyə bəxş edib, onları sevindirib.

## Şahbuz rayonu



*Muxtar respublikamızın hər yerində olduğu kimi, Şahbuz rayonunda da Yeni il bayramı böyük coşqu ilə keçirilib.*

Yola saldığımız 2017-ci il Şahbuz rayonu üçün də uğurlu olub. Muxtar respublikamızda bütün sahələrdə əldə edilən nailiyyətlər Şahbuzun da inkişafı üçün geniş imkanlar yaradıb, burada həyata keçirilən tədbirlərdən hər bir ailə, hər bir sakin bəhrələnib. Bütün yaşayış məntəqələri artıq abadlığa qovuşub, Şahbuzun ən ucqar dağ kəndlərinin belə, siması dəyişilib. Ötən illərdə rayonda aparılmış çoxsaylı quruculuq işlərinə 2017-ci ildə yeniləri də əlavə olunub. Rayon mərkəzi və ətraf kəndlərə içməli su xətti çəkilib. Şahbuz Rayon Elektrik Şəbəkəsinin inzibati binası, “Şahbuz” yarımstansiyası istifadəyə verilib. Haliyədə rayon mədəniyyət evinin yeni binasının və Badamlı qəsəbəsində “Badamlı” zavodunun tikintisində işlər davam etdirilir.

Böyük quruculuq və inkişaf yolu keçmiş Şahbuzda təşkil edilən bayram tədbirində rayon sakinlərinin yüksək əhval-ruhiyyəsi hiss olunurdu. Abadlığı ilə seçilən Şahbuz şəhəri çox gözəl bəzədilmişdi. Şaxta baba və Qar qızın hədiyyələri, onlarla birlikdə rəqs etmələri uşaqların sevincinə səbəb olub. Şahbuz Rayon Mədəniyyət Evinin “Batabat” ansamblının ifası alqışlarla qarşılanıb.

## Sədərək rayonu



***31 dekabr – Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il bayramı münasibətilə Heydərabad qəsəbəsində bayram şənliyi keçirilib.***

Rayon ictimaiyyətinin iştirak etdiyi şənlikdə rayon mədəniyyət evinin musiqi və rəqs kollektivləri, rayon uşaq musiqi məktəbi şagirdləri şeir, musiqi və rəqs ifa ediblər. Rayon mədəniyyət evinin “Oğuz eli” instrumental ansamblının solistləri Fuad Qədimovun, Murad Abbaslının, Müslüm Əliyevin və Ədalət Məmmədovun ifalarında səslənən mahnılar tədbirə toplaşanların alqışlarına səbəb olub. Aydın Qaybalıyevin sazda ifası maraqla izlənilib. Uşaq musiqi məktəbinin nəzdində fəaliyyət göstərən “Tejgar” yallı qrupunun ifa etdiyi “Tənzərə” və “Köçəri” yallıları tədbir iştirakçılarında xoş ovqat yaradıb. Heydərabad qəsəbəsindəki uşaq bağçasının fidanları “Yeni il”, “Naxçıvan” və “Şaxta baba” şeirlərini bədii qiraət ediblər. Bayram tədbirində iştirak edən uşaqları Şaxta baba hədiyyələrlə mükafatlandırıb.

Bayram tədbirində rayon sakinləri ilə söhbətlərimizdən belə nəticəyə gəldik ki, ötən il muxtar respublikamızın bütün bölgələri kimi, Sədərək rayonu üçün də uğurlu, yaddaqalan il olub. Sədərəklilər keçən əsrin 80-ci illərinin sonu və 90-cı illərinin əvvəllərində düşmənə qarşı göstərdikləri qəhrəmanlıqları ilə dastan yazıblar. Sədərək belə insanların hesabına qorunub, bu gün də qorunur. Özü də yüksək səviyyədə – həm torpaq təəssübünü, yurd sevgisini hər şeydən üstün tutan sədərəklilərin, burada xidməti borcunu yerinə yetirən, sərhəddə ayıq-sayıq dayanan hərbçilərimizin hesabına, həm də dövlətimizin böyük qayğısı gücünə. Sədərəkdə torpaq həm qorunur, həm də becərilir. Ötən il də iqtisadi, sosial, mədəni sahələrdə sürətlə tərəqqi edən muxtar respublikamızın inkişafında sədərəklilər fəal iştirak ediblər. İl ərzində rayonda tikinti-quruculuq işləri aparılıb. Ötən il rayon Mədəniyyət və Turizm Şöbəsinin inzibati binası yenidən qurularaq istifadəyə verilib. Haliyədə Heydərabad qəsəbəsində 7 mərtəbəli, 48 mənzilli yaşayış binasının tikintisi davam etdirilir.

Kənd təsərrüfatı sahəsində də nailiyyətlər əldə olunub, genişmiqyaslı yaşıllaşdırma tədbirləri həyata keçirilib, dövlət proqramlarının icrası istiqamətində bir sıra işlər görülüb, sahibkarlığın inkişafına diqqət artırılıb, əhalinin məşğulluğu təmin edilib. Təhsil, səhiyyə və digər sahələrdə də uğurlar qazanılıb.

Sözsüz ki, həyata keçirilən bütün bu tədbirlər əhalinin həyat şəraitinə də müsbət təsir göstərib. Sədərəklilər inanırlar ki, 2018-ci il də onlar üçün nailiyyətlər ili olacaq.

**Xəbərlər şöbəsi**

ŞƏRQ qapısı

**Baş redaktor:**
MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

*Nömrəyə məsul:* Muxtar Məmmədov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

**Tiraj: 1490. Sifariş № 1**